# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 13 (1141) 23 yanvar - 25 yanvar 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

(əvvəli ötən saylarımızda)

**Masallı rayonun böyük yaşayış məntəqələrindən biri də Boradigah qəsəbəsidi. Bu inzibati ərazi dairəsi həm əhalisinə, həm də ərazisinə görə rayonun digər məntəqələrindən fərqlənir. Təbii ki, böyük yaşayış məntəqələrinin problmeləri də həmişə böyük olubdu. Bu mənada Masallı rayon icra hakimiyyəti və onun yerli nümayəndələri qarşıya qoyulan vəzifələrlə yanaşı, həm də qarşıya çıxan problemləri yerindəcə həll etməyi gündəlik vəzifə tapşırığı kimi gerçəkləşdirirlər. Yəni bu ünvanlara edilən müraciətlərə dərhal reaksiya verilir.**

üstə 1500 nəfərə yaxın şagird təhsil alır ki, onların təlim-tərbiyəsi ilə də 120 nəfərə yaxın müəllim məşğul olur. Sevindirici haldır ki, ötən dərs ilinin məzunu olmuş 118 nəfərdən 31 nəfəri ali və orta ixtisas məktəblərinə qəbul olmuşdu. Rayon üzrə götürəndə bu ərazi vahidinin Mollaoba kənd tam orta məktəbini bitirmiş 27 məzundan 10 nəfəri ali məktəblərə daxil ola bilmişdi. Onların topladığı ballar da təbii ki, müəllimlərinin, eləcə də valideynlərin gərgin əməyənin bəhrəsidir.

Bu ərazidə fəaliyyət göstərən 15 çarpayılıq xəstəxana da təkcə qəsəbənin deyil, həm də qonşu kəndlərin də sağlamlığı keşiyində dayanmış həkimlərin ixtiyarına verilmişdi. Ümumiyyət-



# MASALLI - 2015



**"... Sosial infrastruktur, digər layihələr icra edilir və biz növbəti illərdə yəqin ki, daha çox kənd yollarının bərpasına diqqət verməliyik. Bu proses də başlamış, ölkəmizdə geniş vüsət almışdır. Ancaq bildiyiniz kimi, bu, çox böyük vəsait tələb edən layihələrdir və zamana da ehtiyac vardır. Çünki kənd yollarımızın əksəriyyəti yararsız vəziyyətdə idi. Son illərdə bu sahəyə çox böyük vəsait ayrılır və çalışırıq ki, hər bir rayonda heç olmasa bir və ya iki böyük layihə icra edilsin. Ona görə hər bir rayonun kənd yollarının tam şəkildə bərpası bir qədər vaxt tələb edəcəkdir. Ancaq hesab edirəm ki, növbəti beş il ərzində, bəlkə də ondan da tez bütün kənd yolları qurulacaq, tikiləcəkdir.**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Əgər Boradigah qəsəbə inzibati ərazi dairəsində təsərrüfatın sayı 2683, əhalinin sayı 11535 nəfərdisə, bu artıq böyük bir əhali sıxlığı ilə yanaşı, həm də kifayət qədər çözülən və çözülməsini gözləyən problemlər deməkdir. İlk öncə bu, həm də sosial məsələlərin həllinin önə çıxmasıdı. Həmin ərazində, yəni 2736 hektar sahədə bu gün Boradijgah qəsəbəsi ilə yanaşı, Mollaoba və Babaser yaşayış məntəqələri də mövcuddur. Deməli, əslində inzibati ərazi dairəsi bu üç məntəqənin prlblemlərini çözmək, sosial əhyatını yaxşılaşdırmaqÖ eləcə də günün tələblərindən irəli gələn məsələləri həll etmək üçün konkret iş palnına malik olmalıdır. Sevindirici haldır ki, bu gün Masallı rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynovun rəhbərliyi altında işləyən ərazi icra nümayəndəlikləri belə bir fəaliyyət proqramına malikdilər. Məhz həmin proqrama uyğun olaraq rayonun bütün irili-xırdalı məntəqələrində tikinti-abadlıq işləri, yol təimrləri, çəkilişləri, su, qaz, elektrik enerjisi məsələləri mütəmadi olaraq həll edilir. Əgər bu rəqəmlərə istinad etsək, onda görərik ki, rayonun Boradigah qəseəbsi ərazisində 3 tam orta məktəb, 1 ümumi orta məktəb fəaliyyət göstərir. Bu məktəblərdə üst-lə, bu xəstəxanada 51 nəfərlik tibbi personal fəaliyyət göstərir ki, onlardan da 16 nəfəri ali təhsilli həkimlərdi. Yəni Masallı rayonunun həm mərkəzi xəstəxanası, həm poliklinikası, həm bütövlükdə bütün xəstəxana və tibb məntəqələri müasir tələblərə cavab verən avadanlıqlarla müəyyən qədər təmin olunmuş və bu təminat məsələləri rayon rəhbərliyinin nəzarəti altında bu gün də davam etdirilir. Bu da Masallı sakinlərinin paytaxta və digər iri şəhərlərə üz tutmaq çətinliyindən xilas olmaq imkanı verir. Yəni yerli həkimlər və yerlərdə yaradılmış şərait buraya müraciət edənləri sadə şəkildə desək, işinə yarayır, ürəyincədi.

Masallı rayonunun sosial həyatı təkcə tikinti-abadlıq işləri ilə bitmir. Burada həm də mədəniyyət, səhiyyə, təhsil, rabitə məsələlərinin çözümü də ardıcıl nəzarətdə saxlanılır. Ona gorə də rayonda keçirilən bayram şənlikləri, kütləvi tədbirlər, həmçinin ölkənin və bölgənin ğanınmış ziyalıları, elm, mədəniyyət adamları ildə görüşlər həmişə yüksək səviyyədə keçirilir və bu tədbirlərə insanların marağı, axını həmişə böyük olur. Bu da həm işin təşkilatçılaranan peşəkarlığının, həm də bölgə əhalisinin incəsənətə, mədəniyyətə olan sevgisinin nəticəsidir.

Bu gün Masallı rayonunda əkin, təsərrüfat işləri də planlı şəkildə gerçəkləşdirilir. Doğrudur, torpaqlar özəlləşdirilsə də, ancaq müəyyən işlərin görülməsində birgə fəaliyyət də unudulmur. Bu mənada çəkilən yolların kənarlarında yaşıllıqların salınması, həmçinin küçə və meydanlarda müxtəlif ağac və kolların əkilməsi təkcə bu sahədə çalışanların deyil, həm də iməclik yolu ilə bu işə cəlb olunanların əməyinin bəhrəsidi. Necə deyərlər, Masallıda hamı birlikdə təkcə öz həyət-bacasını deyil, həm də öz rayonunu yaşıllaşdırır, gözəlləşdirir. Burada görülən işin başqa bir tərəfi də kənd təsərrüfatının inkişaf etdirilməsidi. Bu mənada rayonun Boradigah qəsəbə inzibati ərazi dairəsində əsasən heyvandarlıqla məşğul olunur. Doğrudur, burada 17 fermer təsərrüfatı fəaliyyət göstərir və həmin fermerlər heyvandarlıq məhsullarının istehsalı ilə məşğuldular. Bu da məhsul bolluğuna şərait yaradır. Təbii ki, həmin heyvandarlıq sahəsinin inkişaf etdirilməsi üçün zəruri olan yem sahələrinin olması, taxıl və digər dənli bitkilərin əkilməsi, yonca sahəsinin, örüşlərin və zəruri olan digər məsələlərin də diqqət mərkəzində saxlanıdması həm bui şlə məşğul olanların, həm də onlara şərait yaradanların daim diqqət mərkəzindədir.

Bəli, ölkə prezidenti cənab İlham Əliyevin təkcə son günlərdə etdiyi çıxışlar, qarşıya qoyduğu konkret vəzifələr bir daha göstərir ki, bu gün dünyanı bürüyən iqtisadi böhrandan çıxmaq üçün Azərbaycanda da qətiyyətli addımlar atmaq və zəruri tədbirlər həyata keçirmək vacibdir. Bunun üçün də yerli icra hakimiyyətləri, ərazi nümayəndələri oturub gözləməli deyillər. Əksinə, onlar konkret layihələri ortaya qoyub onun şəraitə uyğun bir şəkildə, qısa bir zamanda gerçəkləşdirilməsinə həm şərait yaratmalıdılar, həm də özləri bilavasitə bu işdə iştirak etməlidilər. Deməli, bu gün Masallı rayonunda da rayon icra hakimiyyəti başçısı və onun komandası, eləcə də bütün dövlət qurumları, sahibkarlar, bir sözlə, hər bir vətəndaş birmənalı şəkildə ölkənin indiki iqtisadi durumdan daha tez və daha az itkilərlə çıxmasına çalışmalıdı. Birmənalı şəkildə hər kəs Azərbaycan insanının sosial şəraitinin, ailə büdcəsinin yaxşılaşdırılmasına xidmət etməlidir. Təbii ki, bu da sonda ölkənin, bütünlükdə Azərbaycanın həyat səviyyəsinin yüksəlməsi deməkdir.

**Ceyhun RÜSTƏMOV**